**UOT 004.056** DOI: 10.25045/jpis.v10.i2.12

***Əliquliyev R.M.[1], Mahmudov R.Ş.[2]***
[1,2,]AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
[1]r.alguliev@gmail.com, [2]rasimmahmudov@gmail.com

# MİLLİ MENTALİTET KONTEKSTİNDƏ FƏRDİ MƏLUMATLARIN HƏSSASLIĞI VƏ ONLARIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI MƏSƏLƏLƏRİ

Daxil olmuşdur: 16.05.2019. Düzəliş olunmuşdur: 28.05.2019. Qəbul olunmuşdur: 24.06.2019.

*Məqalədə şəxsi həyat və fərdi məlumtların mahiyyətinə dair yanaşmalar şərh olunur. Fərdi məlumatların qorunmasına dair beynəlxalq hüququn formalaşması və inkişaf tarixi, həmçinin Azərbaycanın müvafiq qanunvericilik bazası araşdırılır. Fərdi məlumatların "qara bazarı"nın formalaşması səbəbləri və xüsusiyyətləri müəyyən olunur. Azərbaycan mentalitetində həssas fərdi məlumatların yeri və onlarla bağlı problemlər analiz edilir. Bu problemlərin aradan qaldırılması üçün kompleks təkliflər irəli sürülür.*

***Açar sözlər:*** *şəxsi həyat, fərdi məlumatlar, fərdi tibbi məlumatlar, həssas məlumatlar, fərdi məlumatların "qara bazarı".*

## Giriş

Fərdlər haqqında məlumatların toplanması və emalı prosesləri bəşəriyyətin bütün inkişaf mərhələlərində olmuşdur. Müasir dövrdə isə sürətlə inkişaf edən İKT, o cümlədən müxtəlif elektron dövlət sistemlərində elektron kommersiya, elektron ödəniş, çoxsaylı İnternet xidmətləri, çoxfunksiyalı smartfonlar, *GPS* sistemləri, smart televizorlar, Əşyaların İnterneti texnologiyaları, videomüşahidə sistemləri, biometrik texnologiyalar və s. hər bir fərd haqqında fasiləsiz olaraq böyük həcmdə informasiya toplamaq imkanlarını dəfələrlə artır. Bu imkanlar da, öz növbəsində, fərdi məlumatlarla bağlı daha geniş məqsədlərin ortaya çıxmasına zəmin yaradır.

4-cü sənaye inqilabı isə insan fəaliyyətinin bütün sahələrində olduğu kimi, fərdi məlumatlarla bağlı münasibətlərdə də yeni eranın başlanmasından xəbər verir. Kiberfiziki, kiberbioloji sistemlərin, intellektual sensorlar şəbəkələrinin, süni intellekt, nano və superkompüter texnologiyalarının, robototexnikanın, pilotsuz uçuş aparatlarının meydana gəməsi və inkişafı fərdi məlumatlarla bağlı indiyə qədər həllini tapmayan problemləri daha da kəskinləşdirməkdə və onların sırasına yenilərini əlavə etməkdədir.

Sonuncu sənaye inqilabının əsas çağırışlarından biri də *Big data* texnologiyalarıdır. Bu texnologiyaların istifadə etdiyi "xammal"ın mühüm hissəsi də məhz fərdi məlumatlardır. Əslində, *Big data*-nı aktuallaşdıran əsas faktorlardan biri də fərdi məlumatların bolluğu və əlyetərliliyidir. Ona görə də hazırda fərdi məlumatların toplandığı böyük həcmli verilənlər idarəetmə, iqtisadi, hüquqi və çox təəssüflər olsun ki, həm də kriminal fəaliyyət üçün strateji hədəfə çevrilib.

Məlum olduğu kimi, dövlət hakimiyyətinin dayanaqlılığı, təhlükəsizliyi və effektiv fəaliliyətinin təmin edilmsi mürəkkəb komponentli və operativ məlumat bazalarının, o cümlədən fərdlər haqqında məlumatların toplanmasını, analizini və sistemləşdirilməsini zəruri edir.

Digər tərəfdən, *Big data*-nın meydana gəlməsi və qlobal miqyasda inkişafı fərdi məlumatların qorunması ilə bağlı siyasətin dəyişməsini zərurətə çevirir. Yəni, artıq fərdi məlumatlarla bağlı vətəndaşların hüquqlarının qorunması vəzifəsi ilə yanaşı, onlardan faydalı "xammal" kimi səmərəli istifadə edilməsi məsələsi aktuallaşır.

Fərdi məlumatlardan istifadə ilə bağlı hüquqi məhdudiyyətlərə baxmayaraq, onlardan qeyri-qanuni biznes və kriminal məqsədlərlə istifadəyə olan tələbat bu sahənin "qara bazarı"nın formalaşmasına rəvac verir. Beləliklə, fərdi məlumatlar həm də kriminalistikanın predmetinə çevrilir.

Fərdi məlumatların virtual mühitdə dövr etməsi bu kateqoriyadan olan məlumatların yalnız milli qanunvericilik çərçivəsində qorunmasının artıq qeyri-mümkün olmasına gətirib çıxardır. Bu da fərdi məlumatlarla bağlı ictimai münasibətlərin qlobal miqyasda, beynəlxalq hüquq

çərçivəsində həllini tələb edir. Lakin beynəlxalq miqyasda tərəflər arasında konsensusun əldə edilməsi o qədər də asan məsələ deyil. Çünki "şəxsi həyat" normaları, adət-ənənələri, "fərdi məlumat" analyışları müxtəlif milli mentalitetlərdə fərqli şəkildə anlaşılır. Müvafiq beynəlxalq hüquqi prinsip və standartlar isə milli adət-ənənələri, mental dəyərləri nəzərə almır.

Bu sahədəki problemlər həm də sosial-iqtisadi, psixoloji, kulturoloji və s. aspektli olduğu üçün məsələnin həlli multidistiplinar yanaşma tələb edir.

**Şəxsi həyat və fərdi məlumatların mahiyyətinə dair yanaşmalar**

Fərdi məlumatlar şəxsi həyatın mühüm tərkib hissəsi sayılır. Başqa sözlə, şəxsi həytın toxunulmazlığının təmin edilməsi həm də fərdi məlumatların mühüfizəsini zəruri edir. Ona görə də fərdi məlumatların mahiyyətini daha aydın şəkildə  təsəvvür etmək üçün ona şəxsi həyat prizmasından yanaşmaq məqsədəuyğundur.

"Əsas insan hüquq və azadlıqlarının qorunması haqqında" Avropa Konvensiyasının (1950) 8-ci maddəsininin tətbiq edilməsi praktikası sayəsində bu terminin dəqiq normativ izahı verilmişdir [3]. Belə ki, Avropa İnsan Hüquqları Məhkəməsinin (1992) bəyanatında göstərilir: "Şəxsi həyat – tam təsvir edilə bilməyən geniş kateqoriyadır. Hər bir insan bu anlayışı inkişaf etdirməkdə və ona müəyyən məna verməkdə sərbəstdir. Bu anlayışı "daxili çevrə" ilə məhdudlaşdırmaq və bu çevrəyə daxil olmayan xarici aləmi istisna etmək yolverilməzdir. Beləliklə, "şəxsi həyat" anlayışı digər şəxslərlə və xarici aləmlə qarşılıqlı əlaqənin inkişaf etdirilməsi hüququnun zəruriliyini özündə əks etdirir".

Şəxsi həyatın "toxunulmazlığı" anlayışının və beynəlxalq sənədlərdə işlədilən "*privacy*" termininin ümumi ekvivalenti azadlıq, məhrəmlik, sirr, tənhalıq, mülkiyyət, şəxsilik, özəllik, özəl yaşayış, toxunulmazlıq, şəxsiyyət, şəxsiyyətlərarası münasibətlər mənalarında işlədilən latın dilindəki "gizlilik" ifadəsidir.

Müasir ingilis dilində "*privacy*" aşağıdakı kimi şərh olunur [4]:

1. fərdi, şəxsi, sirli;
2. hamı üçün deyil, ayrıca bir insan, seçilmiş qrup üçün müəyyən edilmiş və ya nəzərdə tutulmuş;
3. müstəqil, hakimiyyətdən və dövlət xidmətindən asılı olmayan;
4. qeyri-rəsmi, rəsmi mövqe ilə bağlı olmayan, ictimai həyatdan asılı olmayan;
5. başqalarının görmədiyi, eşitmədiyi və nəzarət etmədiyi elə bir yer ki, oraya getmək mümkün olsun
6. şəxsi həyatını yaşayan insan.

"*Privacy*" anlayışı rus dilində olan "Böyük hüquqi lüğət"də belə izah olunur [6]: "ingilis-amerikan hüquq sistemində şəxsi həyat sirrini və toxunulmazlığını, insanın intim sferasını ifadə edən xüsusi hüquqi kateqoriyadır. "*Privacy*" termininin rus dilində analoqu yoxdur. Bu termin bəzi hallarda "şəxsi həyat", digər hallarda "şəxsi həyat hüququ", başqa hallarda isə "şəxsi həyatın toxunulmazlığı hüququ" kimi anlaşıla bilər.

Azərbaycan dilində isə "*privacy*" terminin hələlik rəsmi olaraq nə elmi, nə də hüquqi izahı verilməmişdir.

Ümumi "məlumatlar" anlayışından xüsusi "fərdi məlumatlar" kateqoriyasının fərqləndirilməsi onunla əlaqədardır ki, bu cür məlumatlar insanın şəxsi həyatının həssas atributları sferasına aiddir. Bir sıra ölkələrin hüquqi sənədlərində bu cür məlumatları təsvir etmək məqsədi ilə "şəxsiyyəti identifikasiya etmək üçün informasiya" ifadəsindən istifadə edilir.

Fərdi məlumatları onların aid olduğu şəxslərin özlərinin münasibətinə görə iki kateqoriyaya ayırmaq olar:

– açıqlanmasına və yayılmasına məlumat subyektlərinin etinasız yanaşdığı "neytral" fərdiləşdirilmiş  məlumatlar;
– subyektin dövriyyəsini məhdudlaşdırmaq istədiyi məlumatlar.

İkinci kateqoriyaya aid olanlar "fərdi məlumatlar" adlanır və bu cür məlumatın icazəsiz əldə

edilməsi və istifadəsi beynəlxalq hüquqda“məlumat subyektinin hüquqlarına qəsd” kimi təsnif edilir.

Heç bir qanunvericilik aktinda fərdi məlumatların dəqiq siyahısı və ya sərhədi müəyyən edilməyib. O cümlədən, Azərbaycan qanunvericiliyinə görə, “fərdi məlumatlar - şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumatlardır”[7]. Bu cür məlumatların müəyyən edilməsinin özü də fərdi yanaşmadan asılıdır.

**Fərdi məlumatların qorunmasına dair beynəlxalq hüququn formalaşması və inkişaf tarixi**

Fərdi məlumatların qorunması zərurəti hələ XIX əsrin ortalarında meydana çıxmşdır. 1948-ci ildə artıq şəxsi həyatın toxunulmazlığı hüququ Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta daxil edildi (Maddə 17) [8]. 1960-cı illərin ortalarında dövlət orqanları, özəl qurumlar tərəfindən vətəndaşlar haqqında əldə edilən informasiyanın necə toplanması, emal olunması və mühafizə edilməsi məsələləri cəmiyyətin diqqətini cəlb etməyə başladı. Həmin illərdə ABŞ-da və bir sıra Avropa ölkələrində texnologiyaların şəxsi həyatın toxunulmazlığına təsirinin xüsusiyyətlərini, dinamikasını öyrənmək, habelə yeni şəraitdə bu toxunulmazlığın təmin edilməsi üsullarını müəyyən etmək üçün komissiyalar, tədqiqat qrupları yaradılmağa başladı [9].

1967-ci ildə şəxsi həyatın toxunulmazlığı məsələlərinə dair ilk fundamental tədqiqatın nəticələri – ABŞ-ın Kolumbiya Universitetinin hüquq üzrə professoru A.Uestinin “Şəxsi həyat və azadlıq” adlı monoqrafiyası dərc edildi [10]. Bu əsərdə müəllif məlumatların avtomatlaşdırılmış emalı prosesinin geniş yayılmasının nəticələrini analiz edərək belə qərara gəlir ki, artıq şəxsi həyatın toxunulmazlığının təmin edilməsinin yeni standartlarının və metodlarının işlənməsi zəruridir. A.Uestin insanlar haqqında rəqəmsal yazıların qeyd edildiyi və müxtəlif avtomatlaşdırılmış sistemlərdə saxlanılan fərdi məlumatlarla bağlı “elektron kölgə” anlayışını elmi leksikona daxil etdi.

Fərdi məlumatların qanunvericilik səviyyəsində mühafizəsi məsələsinə ilk dəfə ABŞ-da diqqət yetirildi. Belə ki, 1966-cı ildə senator C.Makkarti “EHM və hüquqlar haqqında” qanun layihəsinin qəbul edilməsini təklif etdi [11]. Həmin sənəddə hər bir vətəndaşa elektron informasiya daşıyıcısında onun haqqında yazılan məlumatların məzmunu ilə tanış olmaq və oradakı səhvləri düzəltmək hüququ verilirdi.

1970-ci illərin əvvəllərində vətəndaş hüquqlarının qorunması ilə məşğul olan təşkilatlar texniki və hüquqi tənzimləmə məsələlərinə diqqəti artırmağa başladılar. Bu səylər fiziki şəxslərin onlar haqqında olan məlumatların emalı proseslərinə müdaxilə etmə hüquqlarının tanınmasını təsbit edən yeni qanunların meydana çıxmasına səbəb oldu [9].

İnformasiya axının intensivləşməsi və onun beynəlxalq əməkdaşlıq çərçivəsində emalı, qarşılıqlı iqtisadi münasibətlər və beynəlxalq ticarət transmilli məlumat ötürülməsi problemini aktuallaşdırdı. BMT, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Avropa Şurası, Avropa Birliyi kimi beynəlxalq və regional təşkilatlar bu problemin həlli ilə bağlı səylərini artırmağa başladılar.

1980-ci illərdən başlayaraq fərdi məlumatların qorunması problemi şəxsi həyatın toxunulmazlığı məsələsi çərçivəsindən çıxaraq müstəqil bir istiqamət almağa başladı.

İƏİT fərdi məlumatların qorunması probleminə diqqtə yetirən ilk beynəlxalq təşkilat oldu. Bu təşkilat tərəfindən 1980-ci ildə hazırlanan “Fərdi məlumatların qorunması haqqında” Təlimat hələ də bu tip məlumatlarla bağlı beynəlxalq siyasi normaları özündə əks etdirən əsas beynəlxalq sənəd kimi qalır [12].

Elə həmin vaxtlarda Avropa Şurası fərdi məlumatların mühafizəsi ilə əlaqədar bir sənəd hazırlamışdır. Həmin dövrdə İƏİT də bu məsələ ilə bağlı Avropa Şurası ilə sıx əməkdaşlıq edirdi ki, onlar arasında fikir ayrılıqları olmasın. 1981-ci ildə Avropa Şurası “Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında” Konvensiyanı dərc etdi [13]. Bu Konvensiya indiyə kimi yeganə beynəlxalq hüquqi öhdəlik sənədidir: onu imzalayan bütün ölkələr burada göstərilən tələblərə əməl etməlidirlər. Bu Konvensiyada informasiya ilə vicdanlı işləmə prinsipləri və fərdlərin bir sıra informasiya hüquqları öz əksini tapıb. Sənəddə müvafiq beynəlxalq tənzimləmə ilə əlaqədar xüsusi qurumların və vasitələrin yaradılması nəzərdə tutlub. Lakin mahiyyətinə görə Konvensiya ölkələrarası nünasibətləri tənzimləmək üçün

çoxtərəfli deyil, ikitərəfli mexanizmlərin yaradılmasını nəzərdə tutur. Bundan başqa, sənəddə ölkələr arasında fərdi məlumatların mübadiləsi üçün mühafizə tədbirlərinin adekvatlığı ilə bağlı tədbirlərə dair formal tələblər nəzərdə tutlur. Bu prinsipin tətbiqi sayəsində fərdi məlumatların qorunmasına dair milli qanunlarda bu Konvensiyanın müddəaları nəzərə alınır.

BMT 1980-ci ildən fərdi məlumatların, o cümlədən elektron daşıyıcılarda olanların toxunulmazlığı məsələsinə diqqət yetirməyə başladı. Bununla bağlı ilk prinsiplər 1983-cü ildə işlənib hazırlandı. Yalnız 1990-cı ildə fərdi məlumatların toxunulmazlığı ilə bağlı bir təlimat dərc edildi. BMT 2013-2015-ci illərdə iki mühüm addım atmaqla şəxsi həyatın toxunulmazlığı sahəsində öz rolunu daha da gücləndirdi. Əvvəlcə - 2013-cü ildə Rəqəmsal hüquqlar haqqında Bəyanat dərc edildi. 2015-ci ildə isə konfidensiallıqla bağlı 3 il müddətinə xüsusi məruzəçi təyin etdi. Həmin müddətin yekununda xüsusu məruzəçi şəxsi həyatın toxunulmazlığı sahəsindəki mövcud problemlər və onların aradan qaldırılmasının təmin edilməsi ilə bağlı BMT-yə fəaliyyət planı təqdim etdi [14, 15].

İƏİT isə 1985-ci ildə Tranmilli məlumat axını haqqında Bəyannamə qəbul etdi. Bu Bəyanatda bütün dövlətlərə çağırış edilirdi ki, İnternet mühitində vətəndaşların şəxsi həyatının toxunulmazlığına hörmət etsin və onu qorusunlar. 2013-cü ildə isə 1980-ci ildə qəbul etdiyi Rəhbər Prinsiplərin yenilənmiş variantını dərc etdi [16].

“Fərdi məlumatların avtomatlaşdırılmış qaydada emalı ilə əlaqədar şəxslərin qorunması haqqında” Avropa Şurasının Konvensiyası (108-ci Konvensiya) şəxsi həyatın toxunulmazlığı ilə bağlı beynəlxalq hüquqi müqavilənin yerinə yetirilməsi üçün icbari xarakter daşıyan ilk öhdəlikdir [13]. Bu sənəddə sonradan şəxsi həyatın toxunulmazlığı haqqında bir sıra qanunların əsasını təşkil edən əsas prinsiplər öz əksini tapıb. Konvensiya həmçinin fərdlərin şəxsi həyatını dövlət orqanları və özəl qurumların müdaxiləsindən qoruyur. Konvensiyanını ratifikasiyası kğnüllüdür, lakin onu imzayan ölkələr üzərlərinə müvafiq hüquqi öhdəlik götürürlər. İndiyə kimi bu Konvensiyanı 47 ölkə imzalayıb. Konvensiya Avropa Şurasına daxil olmayan ölkələr və hətta beynəlxalq təşkilatlar üçün də açıqdır. Artıq Avropa Komissiyası bu hüquqdan istifadə edərək Konvensiyaya qoşulub.

BMT-nin “Şəxsi xarakterli məlumatların olduğu kompüterləşdirilmiş kartotekaların reqlamentləşdirilməsinə dair” Rəhbər Prinsipləri (1990) bu normalara əməl etməyi tələb edir [17]: “Öz şəxsiyyətini təsdiq edən istənilən insan ona aid olan informasiyanın emala məruz qalması haqqında aydın şəkildə məlumat almaq, həmin informasiya üzərində müvafiq düzəliş aparmaq, qanunsuz, əsaslandrılmış olduğu və qeyri-dəqiq qeydə alındığı halda onu məhv etmək, bu informasiyanı kimsə əldə edibsə, onu bilmək hüququna malikdir. Məlumatların transmilli miqyasda ötürülməsi o vaxt mümkündür ki, aidiyyatı ölkələr arasında müvafiq hüquqi normalar üst-üstə düşsün, yaxud normalar qarşılıqlı şəkildə razılaşdırılsın. Bu Rəhbər Prinsiplər də fərdi məlumatlar haqqında sənədlərin birinci nəslinə aid edilir.

2001-ci ildə 108-ci Konvensiyaya əlavə Protokol qəbul edildi [18]. Bu protokolda nəzarət orqanları və transmilli verilənlər axını ilə bağlı məsələlər öz əksini tapmışdır. Belə ki, sənəddə üzv dövlətlərə tələb qoyulur ki, fərdi məlumatlarla bağlı nəzarət orqanlarına tam müstəqillik verilsin. Protokolda həmçinin fərdi məlumatların qorunması sahəsində qanunvericiliyin tələblərinin yerinə yetirilməsi vəziyyətini izləyən milli nəzarət orqanlarının yaradılması nəzərdə tutulur.

“Şəxsi həyatın toxunulmazlığı və elektron kommunikasiyalar haqqında” Avropa Birliyi Direktivi (2002) İnternetlə bağlı konkret tələblər (məlumatların saxlanması, *cookies* tipli məlumat fraqmentlərindən istifadə, fərdi məlumatların ümumi istifadə üçün olan kataloqlara daxil edilməsi və s.) müəyyən edir [19].

2013-cü ildə BMT Baş Assambleyası tərəfindən “Rəqəmsal əsrdə şəxsi həyatın toxunulmazlığı hüququ haqqında” Qətnamə qəbul edidi [20]. Qətnamədə şəxsi həyatın toxunulmazlığı hüququna hörmət etməyə və onu qorumağa, habelə bu hüquqların pozulmasına son qoymaq üçün tədbirlər görməyə, bu hüquqların pozulmaması üçün zəruri şərait yaratmağa, o cümlədən beynəlxalq insan hüquqularından irəli gələn öhdəlikləri nəzərə almaqla müvafiq milli qanunvericiliyi formalaşdırmağa çağırış edilir.

Hazırda qlobal və regional səviyyələrdə bir çox müvafiq beynəlxalq normaların, siyasi

prinsiplərin və vasitələrin hüquqi əsasları mövcuddur. Onlar müxtəlif dərəcələrdə institutsionallaşdırılıb və ayrı-ayrı səlahiyyətlərə və kompetensiyalara malikdir.

**Azərbaycanda fərdi məlumatların qorunmasının hüquqi əsasları**

2010-cu ildə qəbul edilmiş, 2014 və 2018-ci illərdə müəyyən dəyişikliklər olunmuş “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanunu ölkədə müvafiq sahə üzrə əsas qanunvericilik aktıdır [7]. Bu Qanun fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi ilə bağlı münasibətləri, milli informasiya məkanının fərdi məlumatlar bölümünün formalaşdırılması, habelə fərdi məlumatların transsərhəd mübadiləsi ilə əlaqədar məsələləri tənzimləyir, bu sahədə fəaliyyət göstərən dövlət və yerli özünüidarə orqanlarının, hüquqi və fiziki şəxslərin hüquq və vəzifələrini müəyyən edir. Bu hüquqi sənədə görə, fərdi məlumatlar şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən növ məlumatdır.

Bu qanununun tələblərinə uyğun olaraq, elə həmin il Azərbaycan Respublikasnın Nazirlər Kabineti “Fərdi məlumatların mühafizəsinə dair Tələblər”i təsdiq etmişdir. [21]. Bu Tələblər fərdi məlumatların mülkiyyətçisi və ya operatoru tərəfindən fərdi məlumatların toplanılması, işlənilməsi, yayılması və verilməsi zamanı həmin fərdi məlumatların və müvafiq informasiya sistemlərinin mühafizəsi ilə bağlı yaranan münasibətləri tənzimləyir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 dekabr 2010-cu il tarixli 237 nömrəli qərarı ilə təsdiq edilmiş “Dövlət qeydiyyatına alınması tələb olunmayan fərdi məlumatların informasiya sistemləri”nin müddəalarına uyğun olaraq, tərkibində 1000 və daha artıq subyekt barədə fərdi məlumatlar olan informasiya sistemləri məcburi qaydada dövlət qeydiyyatına alınmalıdır və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, dövlət qeydiyyatına alınmayan informasiya sistemlərində fərdi məlumatların toplanılması, saxlanılması və işlənilməsi qeyri-qanuni hesab olunur [7, 22].

“İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununda da (2005) fərdi məlumatlarla bağlı müəyyən məslələr tənzimlənir [23]. Bu qanunda göstərilir ki, fiziki şəxslərin özləri barəsindəki sənədləşdirilmiş informasiya ilə maneəsiz tanış olmaq, onu əldə etmək, bu informasiyada dəqiqləşdirmələr aparılmasını tələb etmək, informasiyadan kimlərin və hansı məqsədlə istifadə etdiyini öyrənmək hüququ vardır. Qanuna əsasən, informasiyanın əldə edilməsinə o şərtlə icazə verilir ki, bu, Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi, maliyyə-kredit və valyuta siyasəti sahələrində maraqlarının qorunması, ictimai qaydanın, sağlamlığın və mənəviyyatın mühafizəsi, digər şəxslərin hüquq və azadlıqlarının, kommersiya və digər iqtisadi maraqlarının qorunması, məhkəmənin nüfuzunun və qərəzsizliyinin təmin edilməsi məqsədlərinə zidd olmasın.

2009-cu ildə Azərbaycan Respublikası “Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında” Avropa Şurası Konvensiyana qoşulmuşdur [24].

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsinə uyğun olaraq hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır [25]. “Məlumat azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu da məhz Konstitutusiyamızda təsbit olunmuş məlumat azadlığının təmin olunması ilə əlaqədar hüquqi qaydaları və prosedurları müəyyən edir [26]. Başqa sözlə, bu qanun ölkəmizdə fərdi məlumatlarla bağl münasibətlərin tənzimlənmsi sahəsində mühüm rol oynayır.

Fərdi məlumatların mühüm bir növü də biometrik informasiyadır. Bu baxımdan, “Biometrik informasiya haqqında” Azərbaycan Respublikasının Qanunu fərdi məlumatların qorunması məsələsinə də toxunur [27]. Qanunda qeyd edilir ki, biometrik informasiya ehtiyatlarının formalaşdırılması Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan hüquq və azadlıqlarına riayət edilməklə qanunçuluq, konfidensiallıq, könüllülük və məcburiliyin uzlaşması prinsiplərinə müvafiq həyata keçirilir. O da göstərilir ki, biometrik məlumatların toplanılması, işlənilməsi, istifadəsi və mühafizəsi prosesində insanın həyat və sağlamlığı üçün təhlükə yaradılmasına, onun şərəf və ləyaqətinin alçaldılmasına yol verilmir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının yayılması, habelə satılması və ya başqasına verilməsi, qanunsuz toplanılması, o cümlədən bu əməllərin nəsafədən idarə edilən pilotsuz uçuş aparatlarından istifadə edilməklə törədilməsinə görə pul cərimələri, ictimai işlər, islah işləri, müəyyən vəzifə və fəaliyyətdən məhrumetmə, azadlıqdan məhrumetmə kimi cəzalar nəzərdə tutulur [28].

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən hüquq-mühafizə orqanlarının əməkdaşları da öz işlərini effektli şəkildə qurmaq üçün fərdi məlumatlarla təmasda olurlar. Ona görə də "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (1999) fərdi məlumatlarla əlqədar məsələlərə toxunulur [29]. Göstərilir ki, hər hansı şəxsin razılığı olmadan onun şəxsi həyatının toxunulmazlığına, o cümlədən şəxsi və ailə həyatının sirrinə, habelə onun şərəf və ləyaqətinə dair əldə edilmiş məlumatları yaymaq qadağandır. Qeyd olunur ki, əməliyyat-axtarış tədbirlərinin tətbiqi ilə bağlı insan və vətəndaş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılmasına yalnız bu Qanunla müəyyən edilmiş qaydada cinayətlərin qarşısının alınması, onların açılması, məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran şəxslərin, itkin düşənlərin axtarışı zamanı yol verilə bilər.

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu isə fərdi tibbi məlumatlarla bağlı hüquqi münasibətləri tənzimləyir [30]. Bu Qanunda göstərilir ki, vətəndaşın tibbi yardım üçün müraciət etməsi faktı, onun xəstəliyinin diaqnozu, sağlamlıq vəziyyətinin müayinə və müalicəsi vaxtı əldə edilən digər məlumatlar barədə informasiya həkim sirrini təşkil edir, vətəndaşın verəcəyi məlumatın gizli saxlanılması haqqında ona zəmanət verilir.

"Kommersiya sirri haqqında" Azərbaycan Respublikasının Qanunu da fərdi məlumatlarla bağlı münasibətləri tənzimləyən mühüm qanunvericilik aktlarından biridir [31]. Bu Qanun fiziki şəxslərin kommersiya sirrini təşkil edən məlumatlarının, onların ifadə edilməsi üsulundan və daşıyıcısından asılı olmayaraq qorunmasına təminat verir. Kommersiya sirrinin sənədləri oğurlamaq, fotoşəklini çəkmək, surətini çıxarmaq, zor tətbiq etmək və ya hədələmək, rüşvət vermək, kommersiya sirrinin rejiminə riayət olunması öhdəliklərini pozmaq və ya pozmağa təhrik (vadar) etmək, məlumatların ötürülmə kanallarına qoşulmaq, danışıqlara qulaq asmaq və müşahidə aparmaq bu Qanunla qadağan edilir.

"Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu bank hesabının, hesab üzrə əməliyyatlar və qalıqların, habelə müştəri haqqında məlumatların, o cümlədən müştərinin adı, ünvanı, rəhbərləri haqqında məlumatların sirrinə bank təminat verir [32]. Müştərilərin bank saxlancında əmlakının mövcudluğu, bu cür əmlakın sahibləri, xarakteri və dəyəri haqqında məlumatların sirrinə də bank təminat verir.

## Fərdi məlumatların "qara bazarı"

Fərdi məlumatlaarın dəyəri, əhəmiyyəti artdıqca, onlara olan diqqət də artır. Fərdi məlumatlardan istifadə ilə bağlı hüquqi məsuliyyət normaları olduğu üçün onlardan qeyri-leqal biznes və kriminal məqsədlərlə istifadəyə olan tələbat bu sahənin "qara bazarı"nın formalaşmasına rəvac verir. Hami üçün əlyetərli olan və kommersiya əsasında legitim şəkildə alınıb-satılan məlumatlardan əlavə, müxtəlif mənbələrdən (sosial şəbəkələrdən başlamış ödəniş sistemlərinə qədər) oğurlanmış məlumatlar təşkil edir.

Böyük həcmli verilənlərdən kriminal məqdədlər üçün istifadə imkanları daha genişdir. Müasir informasiya təhlükəsizliyi texnologiyaları və vasitələrinin tətbiqi standart kiberhücumlardan mühafizəni, əsasən, təmin edir. Ona görə də kibercinayətkarlar daim mövcud mühafizə sistemlərini aşıb keçmək üçün yeni-yeni imkanlar, üsullar axtarırlar. Belə üsullardan biri də "qara bazar" vasitəsi ilə müvafiq məlumatların ələ keçirilməsidir.

Bir çox ekspertlər fərdi məlumatların "qara bazarı"nın getdikcə daha da inkişaf edəcəyini proqnozlaşdırırlar. Kibercinayətkarlar bu cür məlumatlardan sosial mühəndislik üsullarını tətbiq etməklə dələduzluq, şantaj, qəsbkarlıq üçün istifadə edirlər.

Sürətlə inkişaf edən bu bu “qara” biznes qlobal hakerlər cəmiyyəti, zərərli proqram təminatı hazırlayanlart tərəfindən dəstəklənir.

“Qara bazar”da konkret olaraq aşağıdakı xidmətlər təklif olunur [33]:

- real zaman rejimində mobil abonentin yerinin müəyyənləşdirilməsi;
- real zaman rejimində mobil abonenti əhatə edən şəxslərin müəyyən ediloməsi;
- abonentin mobil telefonla ünsiyyət qurduğu şəxslərin siyahısı və digər məlumatlar;
- şəxsin hərəkəti zamanı olduğu coğrafi məkanlar və zamanlar və trayektoriyalar haqqında məlumatlar;
- şəxsə aid mülklər, bank hesabları və s. haqqında məlumatlar;
- İnternet xidmətlərindən istifadə zamanı provayderlərin serverlərində toplanan fərdi məlumatlar və s.

“Qara bazar”da fərdi məlumatların qiymətləri fərdin sosial statusundan və maliyyə imkanlarından asılı olaraq dəyişir. Bu “qara” əmək bazarının insan resurslarını formalaşdırmaq üçün xüsusi hakerlik kursları təşkil olunur. Əksər hallarda ödənişlər kriptovalyuta ilə aparıldığından bu cür kibercinayətkarlıqla mübarizə aparmaq çox çətin olur.

Fərdi məlumatların “qara bazarı” ilə effektli mübarizə aparmaq üçün müvafiq qanunvericiliyin təkmilləşdirirlməsi, kibercinayətkarlıqla mübarizə tədbirlərinin gücləndirilməsi vacibdir. Bunlarla yanaşı, fərdi məlumatların *Big data* ehtiyacları üçün səmərəli istifadəsi üçün onların şəxssizləşdirilməsi (adsızlaşdırılması) mexanizmlərinin işlənilib həyata keçirilməsi də zəruridir.

**Azərbaycan mentalitetində həssas fərdi məlumatların yeri və yaratdığı problemlər**

Doğrudur, şəxsi həyat və onun tərkib hissəsi olan fərdi məlumatların hüdudlarının müəyyən edilməsini nəzərdə tutan bir sıra beynəlxalq və milli səviyyələrdə normativ-hüquqi sənədlər mövcuddur. Amma bu hüdudların müəyyən edilməsinin şəxsi, milli və regional ölçüləri də mövcuddur. Bu ölçülər heç də həmişə hüquqi çərçivələrlə üst-üstə düşmür. Bir çox hallarda müvafiq milli qanunvericilik aktları mental xüsusiyyətləri deyil, beynəlxalq tövsiyələri və xarici ölkələrin praktikalarını nəzərə alaraq hazırlanır. Nəticədə fərdi məlumatlarla bağlı ictimai münasibətlərin tənzimlənməsi idarəolunmaz hala gəlib çıxır.

Azərbaycan da şəxsi həyata, fərdi məlumatlara münasibətdə mental dəyərlərin böyük təsir imkanına malik olduğu ölkələr sırasındadır. Ölkəmizdə şəxslərə aid həssas məlumatların əhatə dairəsi kifayət qədər genişdir. Zərif cinsin nümayəndələri ilə bağlı həssaslıq dərəcəsi isə daha yüksək həddədir (Onların yaş həddindən və ailə vəziyyətindən asılı olaraq həssaslıq səviyyəşi artıb-azalır.) Bu da fərdi məlumatlarla bağlı şantaj və digər manipulyasiya hallarını stimullaşdıran amil kimi çıxış edir. Azərbaycanda İnternet istifadəçilərinin sayının yüksək həddə çatması, sosial şəbəkələrin əhali arasında yüksək populyarlıq qazanması nəticəsində fərdi məlumatların bədniyyətli əməllər üçün istifadə hallarının artması müşahidə olunur.

Bir sıra ölkələrdə qanunsuz əldə edilən fərdi məlumatlar biznes fəaliyyəti üçün dəyərli hesab olunur. Lakin elə ölkələr də var ki, orada bu cür məlumatlardan daha çox kriminal məqsədlər, o cümlədən şantaj məqsədi ilə istifadə edirlər. Araşdırmalarımız göstərir ki, Azərbaycanda da fərdi məlumatlardan aid olduğu şəxsləri şantaj etməklə hədələyərək olardan pul tələb etmək üçün istifadə halları az deyil. Ölkəmizdə şantaj məqsədi ilə daha çox qadınlara məxsus həssas fərdi məlumatlardan istifadə edilir. Azərbaycanda xanımlara aid fərdi məlumatların həssaslıq dərəcəsinin yüksək olması, ilk növbədə, milli-mənəvi dəyərlərdən irəli gəlir. Yəni bizim bu dəyərlərimizdə qadın adının çox yüksək tutulması ilə əlaqədardır.

Bir sıra hallarda isə müəyyən şəxsləri nüfuzdan salmaq, karyerasına zərbə vurmaq, ailəsində problem yaratmaq və s. neqativ məqsədlərlə onlar haqqında şəxsi həyata dair yanlış, yalan məlumatlar yayılır. Sürətlə inkişaf edən informasiya texnologiyaları da dezinformasiya xarakterli montaj edilmiş audio, video, foto materialları yaymağa imkan verir.

Ölkəmizin kütləvi informasiya vasitələrində vətəndaşların fərdi məlumatlarının qanunsuz açıqlanmasının neqativ nəticləri ilə əlaqədar xəbərlərə tez-tez rast gəlmək mümkündür. Təəssüflər

olsun ki, Azərbaycanda fərdi məlumatların qanunsuz olaraq açıqlanması ilə əlaqədar baş verən bur cür neqativ hallarla bağlı tədqiqatlar aparılmır, müvafiq statistik hesabatlar hazırlanmır.

Fərdi məlumatların əldə edilərək yayılmasının digər populyar üsulu etibardan sui-istifadə edərək sosial şəbəkələr və mobil telefonlar vasitəsi ilə reallaşdırılan şəxsi yazışmaların mətnlərinin, audio-video söhbətlərin yazılarının, hətta şəxsi görüşlərin görüntülərinin tərəflərdən biri tərəfindən yaddaşa köçürülərək sonradan şantaj yolu ilə, hədə-qorxu ilə nəyisə tələb etmək üçün istifadə edilməsidir. Bu halda vəzifəli şəxs karyerasına zərbə vurulmasından, evli şəxs ailəsinin dağılmasından qorxaraq şantaj edənin tələblərini yerinə yetirməyə məcbur olur.

Azərbaycanda kafe və restoranlarda şəxsi kabinetlərə, avtomobillərdə jalüz və pərdəllərə, hündür hasarlı fərdi evlərə, villalara yüksək tələbatın olması da məhz başqalarının şəxsi həyatına yüksək marağın olması, zərif cinsin nümayəndələrinə aid fərdi məlumatların həssaslıq dərəcəsinin yüksək olması, insanların fərdi məlumatlar vasitəsi ilə şantaj edilmə riskinin yuxarı olması ilə əlaqədardır.

Doğrudur, Azərbaycan qanunvericiliyinə 2017-ci ildə edilmiş əlavə və dəyişikliklər İnternet mühitində fərdi məlumatların qanunsuz dövriyyəsinin qarşısının alınmasına xidmət edir, amma bu məsələ ilə bağlı ölkəmizdə məhkəmə praktikası çox zəifdir, müvafiq hüquqları pozulanlar tərəfindən məhkəmələrə müraciət etmə hallarına çox nadir hallarda rast gəlinir [34]. əsas səbələrdən biri odur ki, bu sahədə vətəndaşlar arasında hüquq mədəniyyəti formalaşmayıb. Vətəndaşlar hüquqlarını pozanların, onları təhdid edənlərin cəzalandırılmasını, onlara dəyən maddi və mənəvi ziyanın əvəzinin ödənilməsini  tələb etməyə o qədər də meylli deyillər. Onlar daha çox hədəflərinə tuş gələnlərlə “dil tapmağa”, məsələnin ictimailəşməsinin qarşısını almağa meyl göstərirlər.

Şəxsi həyatın toxunulmazlığının təmin olunması, fərdi məlumatlarların qorunması məsələləri müasir dövrdə informasiya texnologiyalaları ilə sıx bağlıdır. Ona görə də bu sahədə texnoloji və hüquqi bilikləri özündə birləşdirən spesifik kadrların yetişdirilməsi vacibdir. Bu shədə məhkəmə ekspertizasının obeyektiv və  effektli  şəkildə həyata keçirilməsi üçün xüsusi laboratoriyaların təşkil edilməsinə ehtiyac vardır. Həqiqi və saxta foto, video görüntülərin, audio yazıların bir-birindən ayırmaq üçün xüsusi avadanlıqlar, biliklər və səriştə tələb edilir.

Müasir dövrün reallıqlarından biri də budur ki, bəzən insanların özləri fərdi məlumatlarını yaymaqda maraqlı olurlar. Bu, əsasən, cəmiyyətdə neqativ populyarlıq qazanmaqla əldə etdikləri sosial kapitalı maddi kapitala çevirmək istəyənlərin tətbiq etdikləri bir texnologiyadır. Dünya şou-biznes aləmində bu texnologiyadan geniş istifadə edilir. Son zamanlar Azərbaycanda da bu texnologiyadan istifadə halları müşahidə edilməkdədir.

Şəxsi həyat sirrinin, fərdi məlumatların qanunsuz olaraq yayılması yuxarıda qeyd edilən bir sıra problemlərə yol açdığı kimi, bəzən əksinə, onların gizli saxlanması müəyyən problemlər yaradır. Bu problemlər, əsasən, gənclərin ailə qurmaları ilə əlaqədardır. Məlum olduğu kimi, fərdi məlumatların ən mühüm əhəmiyyət kəsb edən növlərindən biri tibbi məlumatlardır.

Tədqiqatlar da göstərir ki, bir çox insanlar öz tibbi məlumatlarına daha həssas yanaşırlar, onları qorumaqda daha çox maraqlıdırlar. Məsələn, informasiyanın mühafizəsi məsələlərinə böyük diqqət yetirən *EMC* korporasiyası 2014-cü ildə fərdlərin onlara aid fərdi məlumatların konfidensiallığına riayət edilməsinə münasibətlərini analiz edən tədqiqatlarının nəticələrini dərc edib [35]. Ümumilikdə, fərdi məlumatlarının konfidensiallığının daha çox qayğısına qalanlar tibb xidmətlərinin istifadəçiləri olub. Bu, onu göstərir ki, insanlar öz səhhətləri ilə bağlı məlumatlara qarşı daha həssasdırlar.

Bu, əsasən, onunla əlaqədardır ki, insanlar özlərinin səhhətləri, müəyyən xəstəlikləri ilə bağlı məlumatların açıqlanmasının peşə faəliyyətləri, karyeraları, eləcə də, ailə həyatı ilə bağlı problemlər yaratmasından narahat olurlar. Doğrudur, elə spesifik peşə fəaliyyəti sahələri var ki, işə qəbul zamanı müəyyən parametrlər üzrə sağlamlıq haqqında tibbi arayış tələb olunur. Lakin tibbi arayış tələb olunmayan sahələrdə də hər hansı şəxsin səhhəti ilə bağlı neqativ məlumatların yayılması onun peşə vəzifələrini lazımi səviyyədə yerinə yetirə bilməsinə dair inamsızlıq yarada bilər.

Azərbaycan reallığında fərdi tibbi məlumatlara daha çox ailə həyatının qurulması baxımından böyük həssaslıqla yanaşılır. Müəyyən neqativ tibbi göstəriciləri olan şəxslər ailə qurarkən bunu gizli saxlamağa nə qədər ciddi səy göstərirlərsə də, əks tərəf də bu cür məlumatların əldə edilməsində o qədər maraqlı olur. Adətən, aiə qurmaq istəyən gənclərin yaxınları və ya özləri əks tərəf haqqında ən müxtəlif fərdi məlumatları əldə etməyə çalışırlar. Bir çox hallarda ailə qurmaq haqqında qərar da bu məlumatların analizi əsasında verilir. Həmin məlumatların arasında ən yüksək həssaslıq dərəcəsinə malik olan da məhz tibbi məlumatlardır.  O cümlədən genetik tibbi məlumatlar da qərər qəbuletmə üçün çox mühüm əhəmiyyət daşıyır.

Azərbaycanın 1 iyun 2015-ci il tarixindən tətbiq edilən mövcud qanunvericiliyinə əsasən, rəsmi nigaha girmək istəyən gənclər bunun üçün, ilk növbədə, tibbi müayinədən keçməlidirlər [36]. Doğrudur, tibbi müayinənin neqativ nəticələri olarsa, cütlüklərin evlənməməsinə dair yalnız tövsiyə verilir, yəni onlara ailə qurmaq qadağan edilmir. Amma bu cür tibbi müayinənin neqativ nəticəslərini əsas götürərək ailə qurmaqdan imtina edən gənclər də az olmur.

Nəzərə olmaq lazımdır ki, ölkəmizdə ailə qurmaq isəyən cütlüklər bu müayinədən, adətən, toy ərəfəsində keçirlər. Buna qədər elçilik, nişan, xınayaxdı kimi proseslərdən keçmiş, hətta qızın cehizini oğlan evində yerləşdirmiş, toy gününü və toyun keçiriləcəyi şadlıq evini müəyyənləşdirmiş, qonaqlara dəvətnamələr göndərmiş olurlar. Ona görə də son anda evlənməkdən imtina edilməsi böyük maddi və mənəvi-psixoloji problemlər yaradır.

Müvafiq tibbi müayinə zamanı iki qrup – genetik və infeksion xəstəliklər yoxlanılır. İnfeksion xəstəliklərlə bağlı tibbi arayış verildiyi vaxtdan 1 ay müddətində etibarlı sayılır. Amma insanlara aid genetik məlumatlar dəyişməzdir. Ona görə də genetik uyğunluq haqqında məlumatları gənclər bir-birləri ilə münasibət qurmadan öncə də əldə edə bilərlər.

**Azərbaycanda fərdi məlumatların mühafizəsi məsələlərinə dair təkliflər**

İnformasiya texnologiyalarının sürətli inkişafı nəticəsində fərdi məlumatların əldə edilməsi imkanlarının hədsiz dərəcədə artması bu sahədə ictimai münasibətləri daha da mürəkkəbləşdirir və aktuallaşdırır. Doğrudur, bütün dünyada və eləcə də, Azərbaycanda bu münasibətləri daha effektli şəkildə tənzimləmək üçün vaxtaşırı qanunvericilik bazası təkmilləşdirilir, inkişaf etdirilir.

Lakin informasiya texnologiyalarının inkişaf  tempi, o cümlədən 4-cü sənaye inqilabının yaratdığı yeni virtual reallıqlar və əhalinin həyat tərzinin buna uyğunlaşması fonunda dərin kök atmış mental dəyərləri qorumaq cəhdlərinin doğurduğu situasiyanı yalnız qanunvericilik çərçivəsində nizmlamaq mümkün olmur. Bu məsələyə yalnız hüquqi müstəvidə həll etmək cəhdləri yetərsizdir. Məsələnin uğurlu həlli, ilk növbədə, kompleks baxış bucaqlarının bir araya gətirildiyi multidistiplinar elmi araşdırmaların aparılmasını tələb edir. Fərdi məlumatların mühafizəsi sahəsində hüquqi aspektlərlə yanaşı, texnoloji, sosial, psixoloji, kulturoloji, iqtisadi və s. istiqamətlər üzrə tədqiqatların aparılması aktuallıq kəsb edir. Halbuki bu gün fərdi məlumatlarla bağlı problemlər, bütövlükdə, dünya elmində daha çox hüquqi və qismən də texnoloji məsələ kimi qəbul olunur.

Fərdi məlumatların qorunması sahəsində texnoloji, hüquqi və s. zəruri biliklərə malik olan yüksəkixtisaslı kadrların hazırlanmasına ciddi ehtiyac vardır. Xüsusən, hüquq-mühafizə orqanlarında, məhkəmə-eksperiza sahəsində bu cür kadrların çatışmazlığı hiss olunur. Bu sahə üzrə, ilk növbədə, elmi-pedoqoji kadraları yetişdirilməsi vacibdir. Məhz bu sahə üzrə elmi-pedoqoji kadrlar  olmalıdır ki, onların vasitəsi ilə digər müvafiq mütəxəssislər hazırlansın.

Fərdi məlumatlar və onların qorunması mexanizmləri haqqında vətəndaşlar çox cüzi və səthi məlumatlara malikdir. Ümumiyyətlə, ölkədə virtual və texnoloji hüquq mədəniyyəti çox zəifdir. Ona görə də əhali arasında, xüsusən gənc nəslin nümayəndələrinə bu sahədə maarifləndirici tədbirlərin həyata keçirilməsi vacibdir. Bu gün Azərbaycan vətəndaşları sosial şəbəkələrdən və digər İnternet xidmətlərindən geniş istifadə edirlər ki, bu zaman fərdi məlumatlarla düzgün davranmaq tələb olunur. Hətta təhsil proqramlarına müvafiq dərslərin daxil edilməsi zəruridir.

Dünyanın bir sıra ölklərində vətəndaşların fərdi məlumatlarının qorunmasına cavabdeh olan rəsmi dövlət qurumları fəaliyyət göstərir. Məsələn, Avstraliyada "İnformasiya konfidensiallığı üzrə

komissarlıq", Kanadada "İnformasiya hüquqları üzrə ombudsman", Almaniyada "İnformasiya azadlığı və məlumatların qorunması üzrə komissar", Hindistanda "Dövlət informasiya ombudsmanı", İsveçrədə "İnformasiyanın qorunması üzrə komissarlıq", Böyük Britaniyada "Fərdi məlumatların qorunması, informasiya azadlığı və informasiya ekologiyası üzrə ombudsman" adlı təsisatlar mövcuddur [37]. Həmin təsisatlar öz fəaliyyəti barədə illik hesabatlar verirlər.

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasıın Qanununda (2005) da ölkəmizdə "informasiya məsələləri üzrə müvəkkil" vəzifəsinin təsis edilməsi nəzərdə tutulmuşdu [38]. Lakin 2012-ci ildə bu qanuna edilən dəyişikliklərə uyğun olaraq, həmin vəzifəsinin icrası İnsan hüquqları üzrə Ombudsmana həvalə edilmişdir. Digər ölkələrdən fərqli olaraq, Azərbaycanın İnsan hüquqları üzrə Ombudsmanı ölkədəki informasiya hüquqlarının qorunması vəziyyəti ilə bağlı illik hesabatlar vermir. Yaxşı olardı ki, qabaqcıl ölkələrdə olduğu kimi, Azərbaycanda da informasiya hüquqları üzrə ayrıca qurum fəaliyyət göstərsin, dövlət və cəmiyyət qarşısında hesabatlı olsun.

Ölkəmizdə fərdi məlumatların qeyri-qanuni ictimailəşdirilməsində elektron kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçiləri xüsusi rol oynayır. Jurnalistlərin fərdi məlumatlarla işləyərkən müvafiq hüquqi tələbləri yaxşı bilməmələri və nəzərə almamaları bu cür halların kütləviləşməsinə səbəb olur. Ona görə də jurnalistika təhsilinə dair proqramlara fərdi məlumatlarla bağlı dərslərin daxil edilməsi, həmçinin bu sahədə çalışanlar üçün mütəmadi olaraq müvafiq təlimlərin təşkil edilməsi zəruridir.

Həmçinin ölkədə sağlam nəslin yetişdirilməsi, ölkənin demoqrafik təhlükəsizliyi, ailələrdə problemlərin yaranmaması baxımından tibbi xarakterli müvafiq fərdi məlumatların maraqlı şəxslər üçün açıqlanmasının təmin edilməsi arzuolunan haldır. Lakin bu zaman insan hüquqlarına dair beynəlxalq normaları və onun əsasında formalaşdırılan milli qanunvericiliyin tələblərinin gözlənilməsi də vacib şərtdir.

**Nəticə**

Bəşəriyyətin müasir inkişaf mərhələsində informasiya, onun toplanması, emalı, mühafizəsi, ötürülməsi, kommersiyalaşdırılması ilə bağlı münasibətlər və texnologiyalar sürətlə inkişaf edir, mühüm ictimai əhəmiyyət kəsb etməyə başlayır. "İnformasiya cəmiyyəti", "informasiya iqtisadiyyatı", "informasiya təhlüksizliyi", "informasiya mədəniyyəti" kimi anlayışların ifadə etdiyi mühit və münasibətlər cəmiyyətin fəaliyyətinin və davranışının özəyini təşkil edir. Bütün bu cür fəaliyyətin və münasibətlərin mərkəzində dayanan, cəmiyyətdə əsas maddi sərvətə çevrilən informasiyanın mühüm bir hissəsi fərdi xaraakterlidir, hansısa şəxslərə aiddir və onların taleyində mühüm rol oynayır. Fərdi məlumatların mühafizəsi həm də yaşadığımız informasiya cəmiyyətində təhlükəsizliyin, asayişin təmin edilməsinin, milli-mənəvi dəyərlərimizin qorunmasının mühüm vasitələrindən və istiqamətlərindən biridir. Bu baxımdan, fərdi məlumatların mühafizəsinə dövlətin strateji maraqları prizmasından yanaşılması vacibdir.

**Ədəbiyyat:**


1. Agre Ph.E., Rotenberg M. Technology and Privacy: The New Landscape, MIT Press, 1998, 325 p.
2. Шадрин С.А. Содержание права на неприкосновенность частной жизни по российскому и европейскому законодательству // Актуальные проблемы российского права, 2018, №9 (94), с 208-217.
3. Красотенко О.Ю. Понятие «частная жизнь» в решениях Европейского Суда по правам человека / Сборник тезисов 68-й научно-практической конференции студентов, магистрантов и аспирантов факультета международных отношений БГУ. Минск, 27 апреля 2011, с. 51-53.
4. Мельников, М.В. О семантике понятия "приватное" / XIII международная научная конференция преподавателей, аспирантов и студентов НСИ, 2012, с.181-189.

5. Джиоева А.А. Английский язык сквозь призму менталитета англичан: концепт “privacy” // Вопросы теории и практики обучения английскому языку, 2006, №2 (18), с.30-40.
6. Сухарев А.Я., Крутских В.Е., Сухарева А.Я. Большой юридический словарь., М.: Инфра-М., 2009, 858 с.
7. “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/19675
8. International Covenant on Civil and Political Rights, https://www.ohchr.org/en
9. Пазюк А., Соколова М. Защита персональных данных: введение в проблематику, Минск 2015, 117 с.
10. Westin A. Privacy and Freedom // Social Work, New York: Atheneum, 1967, Vol. 13, Is. 4, pp. 114–115.
11. Hert P. Three Scenarios for International Governance of Data Privacy: Towards an International Data Privacy Organization, Preferably a UN Agency? // Journal of Law and Policy, 2013, Vol. 9, No. 2, pp. 271-324.
12. OECD, Thirty Years After The Oecd Privacy Guidelines, 2011, http://www.oecd.org/sti/ieconomy/49710223.pdf
13. Convention for the Protection of Individuals with regard to Automatic Processing of Personal Data, http://www.rm.coe.int/1680078b37
14. UNCTAD. Data protection regulations andinternational data flows: Implications for trade and development, New York and Geneva, 2016, 154 p.
15. OHCHR. Report of the Special Rapporteur on the right to privacy, 28 February 2018, http://www.ohchr.org/Documents/.../Privacy/SR_Privacy/A_73_45712.docx
16. OECD. Declaration on Transborder Data Flows, 1985, https://www.oecd.org
17. United Nations. Guidelines for the Regulation of Computerized Personal Data Files, https://www.refworld.org
18. Convention 108 and Protocols, https://www.coe.int/en/web/data-protection/convention108-and-protocol
19. EU. Directive on privacy and electronic communications, 2002, https://eur-lex.europa.eu/legal-content/EN/ALL/?uri=CELEX%3A32002L0058
20. United Nations. The Right to Privacy in the Digital Age, 2013, https://www.ohchr.org/EN/Issues/DigitalAge/Pages/DigitalAgeIndex.aspx
21. “Fərdi məlumatların mühafizəsinə dair Tələblər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, http://e-qanun.az/alpidata/framework/data/20/c_f_20046.htm
22. “Dövlət qeydiyyatına alınması tələb olunmayan fərdi məlumatların informasiya sistemləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikas; Nazirlər Kabinetinin Qərarı, http://www.e-qanun.az/framework/21060
23. “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/11142
24. Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında” konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, http://www.mincom.gov.az/upload/files/46434aece6e2c96b6749b214919f9a21.pdf
25. Azərbaycan Respublikasının Konstitusiyası, http://www.e-qanun.az/framework/897
26. “Məlumat azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/3420
27. “Biometrik informasiya haqqında” Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/15144
28. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, http://www.e-qanun.az/code/11
29. “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/2938

30. “Kommersiya sirri haqqında” Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/2861
31. “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/2938
32. “Banklar haqqında” Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/5825
33. ARMOR. The Black Market Report, 2018, 16 p.
34. “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, http://e-qanun.az/framework/35124
35. Коржов В. Менталитет и конфиденциальность // Открытые системы, 2014, https://www.osp.ru/news/articles/2014/24/13041843/
36. Nikaha daxil olanşəxslərin tibbi müayinəsi ilə bağlı “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında”Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 dekabr tarixli 389 nömrəli Fərmanının icrası barədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının Qərarı, 25 may 2015-ci il, http://www.sehiyye.gov.az/files/pdf/2015qerar26.pdf
37. van der Sloot B., van Schendel S. International and comparative legal study on Big Data, The Netherlands Scientific Council for Government Policy, 2016, 126 p.
38. “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasıın Qanunu, http://www.e-qanun.az/framework/11142

**УДК 004.056**

**Алгулиев Расим М.[1], Махмудов Расим Ш.[2]**
[1,2,3]Институт Информационных Технологий НАНА, Баку, Азербайджан
[1]r.alguliev@gmail.com, [2]rasimmahmudov@gmail.com

**Чувствительность персональных данных в контексте национального менталитета и вопросы обеспечения их безопасности**

В статье прокомментированы подходы относительно сущности личной жизни и персональных данных. Исследуются формирование и история развития международного права о защите персональных данных, а также соответствующая законодательная база Азербайджана. Определены причины и особенности формирования «черного рынка» персональных данных. Анализируются место чувствительных персональных данных в менталитете Азербайджана и проблемы, связанные с ними. Для решения этих проблем предлагаются комплексные предложения.

***Ключевые слова:*** *личная жизнь, персональные данные, персональные медицинские данные, чувствительные данные, «черный рынок» персональных данных.*

**Rasim M. Alguliyev[1], Rasim Sh. Mahmudov[2]**
[1,2,]Institute of Information Technology ANAS, Baku, Azerbaijan
[1]r.alguliev@gmail.com, [2]rasimmahmudov@gmail.com

**Sensitive Personal Data in the National Mentality Context and Its Security Provision**

The article interprets the approaches to personal life and personal data. Formation and development of international law on personal data protection, as well as the relevant legislative framework of Azerbaijan are explored. The causes and characteristics of the formation of personal data "black market" are identified. The place of sensitive personal data in the Azerbaijan mentality and related problems are analyzed. Complex proposals are offered to eliminate these problems.

***Keywords:*** *personal life, personal data, personal health record, sensitive information, "black market" of personal data.*